Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# Ermənistan işğal zonasında faşistlərin "antikitab siyasəti"ni də təkrarladı - 21 milyon dollar ziyan...

**5-ci istiqamət: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Bütün dünya, bəşəriyyətin maddi-mədəni irsi üçün qanlı kabusa çevrilən erməni faşizminə qulluq edənlərin Azərbaycan mədəniyyətinə, mədəni irsinə qarşı törətdiyi soyqırım aktları ilə öz mahiyyətini növbəti dəfə ortaya qoyub. Ermənilər işğal dövründə yalnız arxeoloji, mədəniyyət və memorial abidələrimizi, dini ocaqlarımızı, məscidlərimizi, ayrı-ayrı tarixi şəxsiyyətlərimizin evlərini, muzeyləri, qalereyaları dağıtmayıb, eyni zamanda, kitabxanalarımıza divan tutublar.**

Dünya mədəniyyətində, xalqların inkişafında əhəmiyyətli yeri olan kitabxanaların erməni vandalizminə məruz qalması həqiqətən də dəhşətli faktlardır.

**Azərbaycanın kitabxana-informasiya sahəsinə erməni terroru nəticəsində 21 milyon dollar ziyan dəyib...**

Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edib, ərazilərimizdə erməni faşizminin qanlı izlərini, dəhşətlərini bütün dünya görür. Kitabxanalar da bir abidədir, bu abidələr də erməni vandalizmindən, faşizmindən canlarını qurtara bilməyiblər.

Torpaqlarımız işğaldan azad edildikdən sonra müxtəlif dövlət strukturları, ekspertlər tərəfindən Ermənistanın işğalı dövründə Azərbaycana vurulan maddi ziyanın həcmi hesablanır. İlkin rəqəmlər ortaya dəhşətli faktlar qoyur. Son hesablamalara görə, Azərbaycanın kitabxana-informasiya sahəsinə erməni terroru nəticəsində 21 milyon dollar ziyan dəyib, kitabxanalar dağıdılıb, qarət olunub, sonra isə yandırılıb, məhv edilib. Budur erməni faşizminin, terrorunun siması...

**27 illik erməni işğalının və barbarlığının fəsadları Qarabağ və onun ətrafındakı rayonlarda mövcud olmuş kitabxanalardan da yan keçməyib**

Qeyd edək ki, bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanasında "Azərbaycanın Ermənistan və Qarabağda məhv edilmiş maddi mədəniyyət abidələri: kitabxanalar, muzeylər, təhsil ocaqları nümunəsində" adlı vebinar respublika elmi konfransı keçirilib. Videokonfransa MEK-lə yanaşı, AMEA Naxçıvan Bölməsindən, AMEA-nın institutlarından, həmçinin, ölkənin digər nüfuzlu ali təhsil müəssisələrindən də alimlər, doktorant və magistrantlar qatılıblar.

AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru, professor Məmməd Əliyev bildirib ki, erməni faşizmi Azərbaycanın maddi və mənəvi irsini məhv edib, tarixi abidələrimizi və məscidlərimizi dağıdıb. Vebinarda, eyni zamanda, qeyd edilib ki, könüllülük prinsipi əsasında AMEA Mərkəzi Elmi Kitabxanası olaraq işğaldan azad olunmuş rayon, şəhər, kənd və qəsəbələrdə MEK-in yaxından dəstəyi və könüllü qruplarının birgə təşəbbüsləri ilə kitabxana-informasiya şəbəkəsinin yaradılmasında da üzərlərinə düşən işi yerinə yetirməyə hazırdırlar.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli plenar iclasda "Ermənistanda məhv edilən və mətnləri təhrif olunan bəzi epiqrafik abidələr haqqında" məruzə ilə çıxış edib. Vurğulanıb ki, 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında ilk erməni dövləti olan Ermənistan Respublikası qurulduqdan sonra azərbaycanlılara məxsus maddi-mədəni irsə qarşı vandal münasibət göstərilmiş, kitabələrin mətni təhrif edilib. İrəvan qalasındakı bütün tarixi abidələr, o cümlədən də Xan sarayı və Sərdar məscidi məhv edilib. Qeyd olunub ki, İrəvan yaxınlığındakı Qaraqoyunlu tayfalarından biri olan Saadlu türk tayfasının başçısı Əmir Saadın dəfn edildiyi Pir Hüseyn türbəsi "türkmən abidəsi" kimi qələmə verilib, Ermənistanın Qarakilsə rayonunun Urud kəndində islam dininə etiqadın göstəricisi olan abidələrin üzərindəki yazılara əlavə hərflər daxil edilərək tarixi kökləri itirilməyə çalışılıb. Vurğulanıb ki, abidələrin üzərində Azərbaycan dilində şeirlər, tarixi həqiqətlər erməni¬lərin dünyaya car çəkdiyi təhrif olunan məlumatlarının əleyhinə olduğu üçün məhv edilib.

AMEA-nın Qafqazşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, siyasi elmlər doktoru, professor Ramilə Dadaşova isə "İşğaldan azad olunmuş ərazilərdə maddi mədəniyyət abidələri və işğalçı Ermənistan dövlətinin məsuliyyətə cəlb olunmasının hüquqi əsasları" adlı məruzəsində bildirib ki, dağıdılmış maddi mədəniyyət nümunələri əsasında ermənilər Azərbaycan dövlətçiliyinə və xalqına qarşı beynəlxalq cinayətlər törədiblər. Qeyd olunub ki, Azərbaycan Respublikasının qoşulduğu Haaqa Konvensiyası, protokolları və bu qəbildən olan digər konvensiyalar hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən maddi mədəniyyət nümunələrinin müdafiə edilməsinin iştirakçı dövlətlərin qarşısında vəzifə kimi qoyur. Ona görə də tarixi abidələrimizin erməni vandallığına məruz qalması bu konvensiyaların prinsiplərinə tamamilə ziddir.

**9 Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 927 kitabxana və orada saxlanan 4,6 milyon nüsxə kitab talan edilib...**

Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Nigar İsmayılova "Ermənistanın işğalına qədər Dağlıq Qarabağın kitabxanaları: statistika" adlı məruzəsində 27 illik erməni işğalının və barbarlığının Qarabağ və onun ətrafındakı rayonlarda mövcud olmuş kitabxanalardan da yan keçmədiyini və vandalizm faktlarını statistik rəqəmlərlə qeyd edib. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda işğala qədərki kitabxana sistemi və işğaldan sonra məhv edilmiş kitab nüsxələrinin sayı, Azərbaycanın kitabxana-informasiya sahəsinə vurulan zərər iştirakçıların diqqətinə çatdırılıb.



Ekspertlər hesab edirlər ki, Qarabağın və ətraf rayonların işğalı dövründə Azərbaycanın kitabxana-informasiya sisteminə vurduğu zərərə görə Ermənistanın hərbi-siyasi rəhbərliyi, terrorçu dövlət birbaşa məsuliyyət daşıyır. Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə Azərbaycana qarşı törədilən müharibə cinayətlərinə görə onlar beynəlxalq hüquq qarşısında cavab verməlidirlər.

Ekspertlər qeyd edirlər ki, erməni faşistləri Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında və digər ərazilərimizdə kitabxanalara qarşı mədəni soyqırım törədiblər. Düşmən kitabxanalarımızı məhv etməklə bizim izlərimizi doğma torpaqlarımızdan silməyə cəhd edib. Erməmi faşistləri Füzuli rayonunun kitabxana mədəniyyətini talan edib, məhvə məruz qoyub.

Ekspertlər deyirlər ki, Ermənistan dövləti tərəfindən məhv edilən dəyərlərimiz sırasında kitabxanalarla bərabər arxivlərimiz də var, onlar da erməni terroruna məruz qalıblar.

AMEA Əlyazmalar İnstitutunun doktorantı, AMEA Mərkəzi Elmi Kitabxanasının Biblioqrafiya şöbəsinin "Biblioqrafik vəsaitlərin hazırlanması" sektorunun müdiri Təranə Rüstəmovanın sözlərinə görə, erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 9 Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 927 kitabxana və orada saxlanan 4,6 milyon nüsxə kitab talan edilib, 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidəsi, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri işğal zonasında vandalizmə məruz qalıb. Ekspert qeyd edib ki, təqribi hesablamalara görə, Azərbaycanın kitabxana-informasiya sahəsinə 20 milyon 815 min ABŞ dolları həcmində maddi ziyan dəyib.

**"Yalnız faşistlər kitaba, kitabxanaya qarşı bu vandalizmi törədə bilər, necə ki, erməni faşistləri bu cinayəti törədiblər"**

Filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli bizimlə söhbətində bildirdi ki, erməni faşistlərinin Azərbaycanın kitabxana-informasiya sahəsinə vurduğu zərərlə bağlı bütün informasiyalar təkzibolunmaz faktlar kimi aidiyyəti beynəlxalq təşkilatlara təqdim edilməlidir. "Ermənistanın Azərbaycanın kitabxana-informasiya sisteminə qəsdən zərər vurduğu aydındır. Terrorçu dövlətin və onun separatçı silahlı birləşmələrinin məqsədi bizim kitabxanaları, arxivləri dağıdıb məhv etməklə, əslində, bizim öz torpaqlarımızdan izimizi silmək olub. Məsələ burasındadır ki, indiyə qədər heç bir beynəlxalq təşkilat, beynəlxalq birlik erməni terroruna qarşı hər hansı bir cavab tədbiri görməyib. Ermənilər bizim onlarla kitabxanamızı dağıdıb, kitablarımızı məhv edib, qədim əlyazmalarımızı isə talan edərək İrəvana daşıyıblar. Ermənistan Azərbaycanın kitabxana-informasiya sisteminə vurduğu zərərə, törətdiyi cinayətlərə görə beynəlxalq hüquq qarşısında cavab verməyə borcludur. Hesab edirəm ki, bütün bu faktlar toplanmalı və aidiyyəti beynəlxalq təşkilatlara təqdim edilməlidir. Bu beynəlxalq təşkilatlar Ermənistanın beynəlxalq hüquq qarşısında cavab verməsini təmin etməlidirlər. Yalnız faşistlər kitaba, kitabxanaya qarşı bu vandalizmi törədə bilər, necə ki, erməni faşistləri bu cinayəti törədiblər. Erməni faşistləri Azərbaycanın kitabxana-informasiya sisteminə 21 milyon dollar zərər vurub və buna görə cavab verməlidirlər. Kitab mədəniyyətlərin təməlində dayanır. Düşmənin kitaba, kitabxanaya faşistcəsinə münasibət sərgiləməsi onun mahiyyətini ortaya qoyur. Bakının mərkəzində erməni kilsəsi var, həmin kilsədə də erməni dilində kitablar saxlanır. Biz onların bir kitabına belə toxunmadığımız halda, onlar Qarabağda kitabxanaları məhv ediblər. Aydın məsələdir ki, onlar indiki Ermənistanda Azərbaycan xalqına məxsus olan kitabxanaları da tamamilə məhv ediblər. Belə bir vandal toplum bizim oradakı kitabxanalarımızı da yer üzündən silib. Bütün bunlar hamısı faşist Ermənistan dövlətinin simasıdır. Dünya bunu görməlidir" - deyə Q.Məhərrəmli vurğuladı.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**